*Allahın adı ilə*

# Zeynəb bacı

**Qələmə alan: Atifə Sadat Musəvi**
**Rəssam: Mikayıl Bərati**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..............................................Zeynəb bacı**
**Müəllif:.........................................Atifə Sadat Musəvi**
**Tərcümə edən:.............................................E. Rəhimi**
**Çap tarixi:............................................................2023**
**Çap növbəsi:......................................................Birinci**
**Tiraj:......................................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 60-59-024519-58

# Müqəddimə

Allah-taala qız və qadınlara həzrət Zəhranı (s) nümunə seçməklə bildirir ki, mənəvi tərəqqi kişi və ya qadın cinsinə xas deyil. Kişi və qadın mahiyyətcə Allah dərgahında bərabər olub, hər biri yalnız iman və təqva sayəsində bir-birindən fərqlənir. Aşağıda qeyd edilən şəhid Zeynəb Kümayinin (Mitra) həyatı da bizə göstərir ki, yaşayış yalnız yeyib-içmək, geyinib-keçinmək və əyləncə ilə bitmir. Onun kimi yeniyetmə qızın dünyaya baxışı daha genişdir və həyatı Allahın razılığında görür. Belə ki, on dörd yaşlı Zeynəbin rəftarları ilahi razılığın cəlbi ilə məna kəsb edir.

Biz neçə səhifəlik yazıda onun nümunəvi həyatını qısa şəkildə qələmə almışıq. Kişi və qadın, böyük və kiçikliyimizdən asılı olmayaraq, belə nümunəvi fərdin həyatı bizə gözəl örnək sayılır və bir növ, onun kimi olmağa borcluyuq.

Atifə Sadat Musəvi
Payız, 2022.

# Mitra yox, Zeynəb!

Mitra o gün oruc tutmuşdu. Anasından xahiş etdi ki, iftara tədarük görsün. O, rəfiqələrini iftara dəvət etmək istəyirdi. Mitra son zamanlar özü üçün maraqlı bir qərar çıxarmışdı və onu süfrə başında hamıya elan etmək istəyirdi. Artıq, iftar süfrəsi hazır idi və geniş otağa sərilən süfrə üzərində təzə çörək, süd, xurma, səbziqovurma göz oxşayırdı. Axşam azanına bir şey qalmırdı, dostları isə hələ da gəlib çıxmamışdı. Ailə üzvləri süfrə kənarında onların yolunu gözləyirdilər. Azan veriləndən sonra da gəlib çıxan olmadı. Mitra narahat olmaya bilməzdi. Anası ona ürək-dirək verərək dedi: "Eybi yoxdur qızım, orucsan, sən iftar elə!" Mitra bir qədər çörək, süd və xurma ilə iftar edəndən sonra dedi: "Eşitdiyimə görə imam Əli (ə) da iftarı duz-çörəklə edərmiş!" O, bu sözləri çox qətiyyətlə deyib, iftar edəndən sonra üzünü süfrə kənarında oturanlara tutaraq belə söylədi: "Bu axşamdan belə mənim adım Zeynəbdir və daha məni Mitra çağırmayın!" Anası sevinclə qızını öpərkən bütün ailə üzvləri onu təbrik etdilər.

O, dindar ailədə böyüsə də atasının milli adlardan xoşu gəlirdi və "Mitra" adını ona nənəsi qoymuşdu. Odur ki, böyüdükcə həyat tərzi ənənəvi dini ölçülər üzrə formalaşaraq Əhli-beyt (ə) kimi dəyərli nümunələrə, o cümlədən, imam Hüseynə (ə) rəğbəti artırdı. Onu adını dəyişməyə vadar edən amil də həzrət Zeynəbə (ə) olan hədsiz məhəbbəti idi. O da Kərbəla qəhrəmanı həzrət Zeynəbə (ə) bənzəmək istəyirdi.

# Hekayələr

Atası Cəfər Abadanın neft şirkətində işləyirdi. Onlar şirkət tərəfindən işçilərə verilən mənzildə yaşayırdılar. Sıra ilə düzülən çinar ağacları küçələrinə xüsusi gözəllik bəxş edirdi. Hər evin məxsus həyətyanı sahəsi və bağçası vardı. Burada ilin bütün fəsilləri təravətli keçirdi. Valideynləri Cəfər və Kübra xanım bağçada müxtəlif tərəvəz və göy-göyərti əkirdilər. Onlar yeddi irili-xırdalı yeddi uşaqla birgə böyük ailə sayılırdılar. Nənəsi tək yaşayardı və tez-tez onlara baş çəkirdi. Uşaqlar da onu çox sevirdilər. Hamıdan çox Zeynəb nənəsinə vurğun idi və həmişə onun Quran hekayələrini maraqla dinləyirdi. O, qapı-qonşu olan dindar ailənin böyük qızının Quran dərslərində də həvəslə iştirak edirdi. Bu dərslərdə iştirak etdikcə hicab və geyiminə də xüsusi əhəmiyyət verirdi. Yaşının azlığına baxmayaraq bütün işlərdə qabaqcıl olmağa çalışırdı. Hələ inqilab baş vermədiyi və camaat arasında hicaba riayət olunmadığı halda balaca Zeynəbin hicaba meyli onun saf və səmimi hislərindən irəli gəlirdi.

# Qızılca

Keçmişdə hər yerdə olduğu kimi İranda da səhiyyə yaxşı inkişaf etməmişdi. Ona görə də insanlar əziyyət çəkir, tez-tez yoluxucu xəstəliklər yayılırdı. Əhali arasında xəstəliklərə ən tez yoluxan kiçik və məktəb yaşlı uşaqlar idi. Zeynəb də elə birinci sinifdə qızılcaya tutuldu. Qızdırması yuxarı idi və bütün bədənini xırda qızartılar bürümüşdü. Evdə istifadə edilən dərmanların ona təsiri yox idi. Tibb məntəqəsi evlərindən çox aralı olduğu və anasının qulluğa gedəni olmadığından özü onu həkimə aparmalı idi. Uşaq həddən artıq zəifləmişdi və bədənində taqəti qalmamışdı. Odur ki, anası onu ədyala büküb, qucağında aparmaq istəyirdi. Anası hazırlaşarkən gördü ki, Zeynəb ondan qabaq hazır vəziyyətdə dayanıb onu gözləyir. O, elə uşaqlıqdan başqalarına yük olmaq istəmirdi.

Tibb məntəqəsinin həkimi ona iynə yazdı. Zeynəb ağrılara qarşı dözümlü olduğuna görə iynə vurularkən başını anasının dizinə qoyub, səsini çıxarmadı. Daha sonra həkim xəstəyə istirahət yazdı, yalnız sup və bulyondan istifadəni məsləhət gördü. Zeynəb üzüyola uşaq olduğundan bu barədə anası heç nigaran deyildi. Xoşagəlimliyinə görə hamı onu çox istəyirdi və o da bacı-qardaşlarını sevirdi. Sanki onda nadinclik, paxıllıq, lovğalıq və s. bəyənilməyən xislətlər yox idi. Qonşuluqda da hamı onu əzizləyirdi.

# Obaşdanlıq

Zeynəb başına çarşab atırdı və az yaşından dinin vacib hökmlərinə ciddi əhəmiyyət verirdi. Ramazan ayına on gün qalırdı. O, çox arıq və cılız bir qız idi. Evdə ona oruc tutmağa icazə verilməyəcəyini bilib, nənəsigilə getdi. Adətən, nənəsi ramazandan on on-beş gün qabaq oruc tutmağa başlayırdı. Yaz fəslindən sonra Abadanda havalar isti və bürkülü keçirdi, onun evində kondisioner yox idi. Ona görə də Zeynəb gecələr evin saman sərilən damında yatırdı.

Zeynəb ramazanın birinci gününə keçən gecə nənəsindən xahiş etmişdi ki, onu da obaşdanlığa oyatsın. Ulduzların sayrışdığı gecənin bir aləmində nənəsi yuxudan ayılıb, onun məsum çöhrəsinə nəzər saldı. Uşaq şirin yuxuya dalmışdı. Balaca nəvəsini yuxudan oyatmağa ürəyi gəlməyən nənə, pəncələri üstə asta-asta pillələrdən aşağı endi. Həyətə düşüb, tədarük görməyə başlayarkən Zeynəbin damdan boylanaraq "Nənə!" – səsinə bərk diksindi.

– Niyə məni oyatmadın? Elə bilirsən ki, obaşdanlığı yeməsəm, oruc tutmayacağam? Nənə, Allah haqqı, mən yeməsəm də oruc tutacağam və vecimə deyil!

Nənəsi onun oruc tutmağa hədsiz şövqünü görərkən yenidən geri dönüb, dama qalxdı və uşağı bağrına basaraq doyunca öpdü. Nənə ilə nəvə o gündən etibarən obaşdanlığı birgə yeyərək oruc tutmağa başladılar və on gün qabaq ramazanın pişvazına çıxaraq orucluğu müvəffəqiyyətlə başa vurdular.

## Divar qəzeti

Abadanda, o cümlədən, bütün ölkədə vəziyyət dəyişmişdi. Uzun illər mübarizədən sonra xalq imam Xomeyninin rəhbərliyi ilə zalım şah rejimini devirmişdi. Şah İrandan qaçandan sonra xalqın rəhbəri imam Xomeyni ölkəyə qayıtmışdı. İnqilabın qələbəsindən sonra ölkədə hələ də təntənəli nümayişlər davam edirdi. Artıq özündə qürur duyan Zeynəbin böyük qardaşı Mehran da nümayişlərdə iştirak edirdi. O da bacılarının çadra geyinərək nümayişlərə qoşulmasını istəyirdi. Balaca Zeynəb iki il idi ki, çadra geyinirdi. Yaşına baxmayaraq hadisələrə laqeyd deyildi və məsuliyyət hissi keçirərək nümayişlərdə iştirak edirdi.

Zeynəb təhsil sisteminin ikinci pilləsinə keçəndən sonra inqilabi fəaliyyətə başladı. Məktəbin divar qəzetində inqilabi xarakterli mətnlər hazırlayır, səhər toplanışlarında hamının qarşısında Quran oxuyurdu. Həmin ərəfələrdə ölkədə “Xalq mücahidləri” adlı əksinqilabçı ünsürlər fəaliyyətə başlamışdılar. Onlar zahirdə şah rejimi ilə mübarizə aparsalar da Amerikanın rəhbərliyi altında imperializmə xidmət edir, təmtəraqlı şüarlarla cavan nəsli azdırırdılar. Hətta Zeynəbgilin məktəbindən də onlara qoşulan qızlar var idi. Zeynəb açıq fikirləri ilə yolunu azanlara mücahidlərin mənfur niyyətlərini ifşa edir, onlara aldanıb, yanıldıqlarını başa salmağa çalışırdı. Buna baxmayaraq qulağı yalanla dolanlara, şüur və ağlını itirənlərə heç bir təbliğatın təsiri yox idi. Elə ona görə də bu günahsız qız bir gün həmin azğınlar tərəfindən təklənərək döyülür və beləcə, onun İslam və inqilaba xidmət yolunda ağrılı-acılı günləri başlayır.

# İnsan və təbiətşünaslıq dərsi

Kümayilər ailəsi gözəl günlər yaşayırdı və uşaqlar təhsildən əlavə dini-əqidəvi məsələlərlə də maraqlanırdılar. Zeynəbin böyük bacıları ustad Mürtəza Mütəhhərinin əsərləri əsasında təlim verilən dini ocaq və dərnəklərə gedirdilər. Müəllimlər onları İslam dininin əsasları ilə tanış edərkən hər birinə xüsusi özünüislah dəftərçəsi ayırmasını da tövsiyə edirdilər. O zaman Zeynəbin belə dərslərdə iştirak etməyə yaşı çatmırdı. Bununla belə, bacıları ona da öz həddində lazımı məsələləri başa salırdılar. Ondan sonra Zeynəb də özünə xüsusi özünüislah dəftərçəsi ayırmışdı. O, bu dəftərçəni gündəlik dəftəri kimi sütunlara ayıraraq ona gün ərzindəki yaxşı işlərini qeyd edib, özünə qiymət verirdi və növbəti gün isə keçən gündən daha üstün olmağa çalışırdı.

İnqilabın qələbəsindən sonra cəmiyyətdə, o cümlədən, təhsil mərkəzlərində də qarşılıqlı fikirlər əmələ gəlmişdi. Məktəbdə müəllimələrin bir hissəsi dini məsələlərə və hicaba əhəmiyyət verdiyi halda, digər hissəsi isə biganə yanaşaraq riayət etmirdi. Onların bəziləri hicablı şagirdlərə hörmətsizlik edirdilər və həmişə gözəl hicabı ilə tanınan Zeynəb də belə nəzakətsizliklərə məruz qalırdı. Məsələn, bir dəfə insan və təbiətşünaslıq müəllimi insanın onurğa sütununu praktiki olaraq arıq Zeynəbin üzərində izah etmişdi. Həmin gündən başlayaraq şagirdlərin çoxu onu skelet adlandıraraq ələ salırdılar. Belə pis rəftarlara baxmayaraq onun iradəsi bir az da artır, hətta müstəhəb sayılan həftənin birinci və dördüncü günlərini də oruc tuturdu.

## Barışıq məktubu

Bəzən başımız həyatın şad günlərinə elə qarışır ki, hər bir halda gözlənilən çətin və xoşagəlməz hadisələri unuduruq. Halbuki rahatlıq və çətinliklər bir-birindən ayrılmır və Kümayilər ailəsi də belə hallardan müstəsna deyildir. Belə ki, bir gün səhərin alatoranlığında İraqın qırıcı təyyarələrinin qorxunc sədaları bütün Abadanı bürüdü. O gündən başlayaraq həmin məntəqə müharibənin sonunadək asayiş üzünü görmədi. Belə gözlənilməz hadisəyə dözmək olduqca çətin idi. Müharibənin qurbanı olan əhaliyə heç bir məlhəm əlac etməyə qadir deyildi. Minlərlə ailə ilə birgə zeynəbgil də Abadanı tərk etməyə məcbur oldular. Onlar min bir əzab-əziyyətlə İsfahanın Şahinşəhr məntəqəsinə köçdülər. Bu məntəqənin əhalisinin çoxu dindar olmadığından, onlar başqa çətinliklə üzləşdilər. İki qardaşı ilə böyük bacısı döyüşçülərə yardım məqsədi ilə Abadanda qaldı və atası da neft şirkətində işlədiyinə görə oranı tərk edə bilmədi. Zeynəb özü qardaşlarına qoşulmaq istəsə də anasının ona hədsiz məhəbbəti bais oldu ki, fikrindən daşınsın.

Zeynəb təhsildən neçə ay geri qaldığı halda böyük həvəslə dərslərini oxumağa, qabaqkı kimi yenə mədəni-inqilabi fəaliyyətə başladı. O, ətrafında baş verən hadisələrə laqeyd deyildi və əksər işlərdə hamıdan fəal idi. Onun ağıllı təşəbbüsü ilə çoxdan bəri küsülü olan iki səmimi dost barışmalı oldu. Belə ki, qarşı tərəfin birinin adından peşmançılıq məktubu yazaraq onları barışdırdı. Hər bir halda onun müsbət təsiri danılmaz idi.

# Həsrət

Şahinşəhrin əksər əhalisini mühacirlər təşkil edirdilər. Əlbəttə, Abadanın isti və bürkülü iqlimini tərk edib gələnlər mühacirət yox, bura pənah gətirmişdilər. Cənub bölgəsinə nisbətən bu məntəqənin mülayim və sərin havası vardı. Zeynəb artıq təhsil sisteminin üçüncü pilləsinə keçmişdi və dini təhsil almaq üçün Qumda elmi hövzəyə daxil olmağa can atırdı. O ərəfədə böyük bacısı ilə iki qardaşı neçə günlük məzuniyyətə çıxaraq İsfahana gəlmişdilər. Zeynəbgil cəbhə bölgəsindən uzaq olsalar da özü heç vaxt müharibənin gedişatından xəbərsiz deyildi. Fürsətdən istifadə edib bir neçə günü qənimət sayaraq bacı-qardaşlarının öz şəxsi xatirələri, Abadanın ümumi vəziyyəti və döyüşlərin gedişi ilə, həmçinin tanışlardan şəhid olanlar və sağ qalanlarla yaxından maraqlanırdı. Onu daha çox maraqlandıran şəhidlərlə bağlı hadisələr, onların ürək sözləri və vəsiyyətləri idi.

Zeynəbgilin yeni mənzildə balaca bir otaqları vardı və ondan anbar kimi istifadə edirdilər. Zeynəb bütün vaxtını həmin otaqda keçirdi. Zeynəbin cəbhə bölgələrində tibb bacısı kimi xidmət göstərən rəfiqəsi Mina onun üçün yaralılar və şəhidlərdən xatirələr danışır və o da bir-bir hamısını qələmə alırdı. Hətta bir dəfə onun özündən "Allahdan şəhid olmağı arzulamısanmı?" – deyə soruşduqda, - "Əlbəttə, Allaha görə çalışan insan yatağında belə ölsə şəhid sayılır!" – demişdi. Əslində, Zeynəbin şəhidlərin xatirələrinə olan hədsiz marağı onu yavaş-yavaş həsrətini çəkdiyi amala doğru yönəldirdi.

# Hədiyyə

Çoxdan idi müharibənin qara buludları ölkənin üzərinə sayə salmışdı. Yaralıların sayı artdıqca cəbhə bölgəsinə yaxın şəhərlərin xəstəxanaları xidmət və tələbatı ödəyə bilmirdi. Yaralıları ölkə üzrə başqa rayon və şəhərlərə köçürürdülər. Həmin ərəfədə yaralıların bir qismi İsfahan xəstəxanalarında müalicə edilirdi. Bu məsələ Zeynəbin diqqətindən yayına bilməzdi. Təhsil aldığı məktəb onların evinə nisbətən uzaq olduğundan anası hər gün ona maşınla gedib-gəlməsi üçün kirayə pulu verirdi. O isə məktəbə piyada gedərək həmin pulları daha mühüm məsələ üçün toplayırdı. Hər dəfə lazım olan məbləği toplayandan sonra onunla kitab alırdı. Belə ki, həftədə bir-iki dəfə İsfahanın "Şəhidlər" və "İsa Məsih" xəstəxanalarına baş çəkərək yaralı döyüşçülərlə görüşür, aldığı kitabları onlara hədiyyə edirdi. O, canını vətən yolunda qurban edən döyüşçülərin ürək sözlərini dinlədikcə onları maqnitofona yazırdı və maraqlı müsahibələri ertəsi gün məktəbdə səhər toplanışında səsləndirirdi. Əksər döyüşçülərin cavan qız və qadınlara tövsiyələrini həya, iffət və hicaba riayət kimi səciyyələr təşkil edirdi. Artıq İsfahan Zeynəbin cəbhə meydanına çevrilmişdi və onun Abadandan ayrı düşməyi vəzifəsindən yayınmağına bais olmurdu. O, doğma yurduna qayıtmağı arzulasa da fəaliyyətdən yorulmur, sanki, buranı özünə həmişəlik məskən seçmişdi.

## Arzu

Qış fəsli ötüb keçdikcə yerini təravətli yaz fəsli tuturdu. Bayrama cəmi neçə gün qalırdı. El adəti üzrə Zeynəbin anasının başı evin səliqə-sahman işlərinə qarışmışdı. Zeynəb də onunla bərabər çalışaraq hər yeri ayna kimi parıldadırdı. O, işlədikcə anasına deyirdi: "Ana, mənim məqsədim sadəcə təmizlikdir və bu il yeni ili qeyd etmək fikrim yoxdur! Hal-hazırda döyüşçülərimiz cəbhələrdə gecə-gündüz vuruşurlar və hər gün yaralanan və şəhid olanlar var! Odur ki, bizə bayram keçirmək yaraşmaz!" Anası da ona bunları yalnız evdəki əhval-ruhiyyəni dəyişmək məqsədi ilə etdiyini bildirirdi.

1982-ci ilin ilk gününə keçən axşam Zeynəb yenə həmişəki paltarlarını geyinib, məscidə tərəf yollandı. O, müharibə başladığı zamandan şəhid ailələrini nəzərə alaraq indiyədək özünə təzə paltar almamışdı. Namazlarını həmişə məsciddə qıldığı üçün müəyyən qədər yubanmağı adi hal idi. Amma bir saat keçəndən sonra anasının nigaran qalması təbii idi. Odur ki, tələsik evi tərk edərək kiçik oğlu ilə birgə küçəbəküçə qızını axtarmağa başladı və hər gələn-gedəndən sorağını arasa da onu gördüm deyən olmadı. Bütün ailə o gecəni hədsiz nigarançılıqla başa vurdu. Ertəsi gün xəbər onu tanıyanların arasında yayıldı, məktəb şagirdləri və müəllimlərindən tutmuş, şəhərin cümə imamınadək hamı məsələyə qarışdı. Zeynəbin fəal olması və inqilabi fəaliyyətləri çoxlarının diqqətini özünə cəlb etdiyindən münafiqlərin də gözündən yayına bilməzdi. Nəhayət, üç gün axtarışdan sonra Zeynəbin cansız cəsədinin tapıldığı elan edildi və o da bir çoxları kimi münafiqlərin əli ilə şəhadətə yetdi.

O, neçə ay qabaq yazdığı vəsiyyətnaməsinə əsasən, belə bir günə hazır idi və həmin axşam şəhadət qüslü edib, məscidə getmişdi. Daim şəhidlərin başına pərvanə kimi dolanan Zeynəb onlara qoşularaq asimanlara yüksəldi və cənazəsi İsfahanın şəhidlər xiyabanında dəfn edildi. Əziz xatirəsi unudulmazdır və yolu bizə örnəkdir...